**N.Ş.HÜSEYNOVA**
*baş müəllim*
*e-mail: huseynova.nushaba.sbsu-uni.edu.az*
**:https://orcid.org/0000-0001-6855-1478**

**Bakı Slavyan Universiteti**
(Bakı şəh., S.Rüstəm küç., 33)

**10.62021/0026-0028.2024.4.263**

# SİFƏTİN ÖYRƏDİLMƏSİNƏ DAİR

***Xülasə.*** *Əsas nitq hissələrinin şüurlu suratdə mənilmənilməsi onlara aid ilkin məlumatların mükəmməl öyrədilməsindən asılıdır. Sifətin öyrədilməsinə keçməzdən əvvəl isim bəhsini yekunlaşıdırmaq, öyrənilən materialla keçilmişlər arasında əlaqə qurmaq məqsədilə təkrarın aparılması məqsədəuyğundur. Sifət əşyanın əlamət və keyfiyyətini bildirir. Şagirdlər anlamalıdırlar ki, məhz əlamət və keyfiyyətlərə görə əşyalar bir-birindən fərqlənir. Əşyalara xas olan əlamətlər də müxtəlifdir. Bunlar rəng, həcm, ölçü, zahiri görünüş, dad və s. ola bilər.*
*Sifət bəhsi öyrədilərkən onun quruluşca növləri, dərəcələri, cümlədəki rolu üzərində də xüsusi dayanmaq lazımdır. Sifət isim yerində də işlənə bilir və bu zaman dəyişərək ismin xüsusiyyətlərinə malik olur. İsim kimi hallana, cəmlənə bilir, mənsubiyyət şəkilçisi qəbul edir. Cümlə üzvü kimi sifət əsasən təyin, bəzən də xəbər olur.*
*Müəllim şagirdləri maraqlı mətnlər və çalışmalar üzərində işlədə bilər. Sinonim sifətlərdən düzgün, yerində istifadə etmək nitqi gözəlləşdirir.*

***Açar sözlər:*** *sifət, çalışma, cümlə üzvü, sifətin cümlədəki rolu, morfologiya*

Əsas nitq hissələrinin düzgün, şüurlu şəkildə mənimsənilməsi onlara aid ilkin məlumatların mükəmməl öyrədilməsindən asılıdır.

Məlum olduğu kimi, şagirdlərə əsas nitq hissələri haqqında ümumi anlayış ibtidai siniflərdə verilir.

Yuxarı sinifdə, daha dəqiqliyi ilə desək, VI sinifdə isə morfologiya bəhsi tədris olunarkən əsas nitq hissələri ətraflı, geniş şəkildə öyrədilir. Bu zaman mövzunun tədrisi bir növ təkrar xarakterli olur. Başqa sözlə, əsas nitq hissələrinin keçilməsində əsas məqsəd şagirdlərin aşağı siniflərdə qrammatik kateqoriyalara aid öyrəndikləri bilikləri ümumiləşdirməkdən, nitq hissələri barədə veriləcək yeni məlumatları daha dərindən mənimsətmək üçün müəyyən bir əsas yaratmaqdan ibarətdir.

Məqalə konkret olaraq sifətin tədrisinə həsr olunduğundan bu nitq hissəsinin üzərində xüsusi olaraq dayanırıq.

Fikrimizcə, sifətin öyrədilməsinə keçməzdən əvvəl isim bəhsini yekunlaşdırmaq, öyrənilən materialla keçilmişlər arasında əlaqə qurmaq məqdəsilə qısa şəkildə təkrar aparılması məqsədəmüvafiqdir. Belə olduqda yeni mövzunun öyrədilməsi daha keyfiyyətli olar. Aparılan təkrar müsahibə xarakterli də ola bilər. Sorğu əsasında məlum olur ki, isim öz qrammatik xüsusiyyətlərinə görə başqa nitq hissələrindən fərqlənir. Belə ki, isim əşyanın adını bildirir (kitab, qələm, kənd, çanta və s.), kim? nə? hara? suallarından birinə cavab verir (ana, müəllim, şəhər, Bakı), mənsubiyyət şəkilçiləri qəbul edir (eviniz, anamız, otağı), tək və cəm halda ola bilir (şagirdlər, ata-atalar), isimlər hallana bilir (dəftər, dəftərin, dəftərə və s.), isimlər ümumi və xüsusi olur (ölkə – Azərbaycan, tələbə – Nərmin və s.).

Bu ümumi təkrardan sonra müəllim diqqəti aşağıdakı cümlələrə yönəldir:

1. Bakı gözəl şəhərdir. 2. Azərbaycanın mənzərəli guşələri çoxdur. 3. Şəhərimiz mavi Xəzərin sahilində yerləşir. 4. Uca dağlar, gen dərələr, ürəkaçan mənzərələr (S.Vurğun). 5. Bağçamızda ətirli güllər əkmişik. 6. Anam dadlı yeməklər bişirir.

Diqqət altından xətt çəkilmiş sözlərə yönəldilir və bundan sonra müəllim yeni mövzunun – sifət mövzusunun tədrisinə keçir, sifətin əşyanın əlamət və keyfiyyətini bildirdiyini qeyd edir. "Azərbaycan dilinin tədrisi" kitabında çox haqlı olaraq göstərilir: "Şagirdlərə ilk növbədə sifətin tərifindəki əlamət sözünü başa salmaq lazımdır" [2, s. 39].

Şagirdlər anlamalıdırlar ki, məhz əlamət və keyfiyyyətlərə görə əşyalar bir-birindən fərqlənir.

Əşyalara xas olan əlamətlər özləri də müxtəlifdir. Məsələn, qələm – göy, qırmızı, sarı, yaşıl və s. rəngdə; qalın, nazik ölçüdə; ev – təmiz, səliqəli, hündür, alçaq, işıqlı və s. ola bilər. Müəllimin iştirakı ilə şagirdlər əlamət bildirən sözlərin sifət olduğunu təyin edirlər.

Müəllim qeyd edir ki, sifət də isim kimi dilimizdə ən çox işlənən nitq hissəsidir, sifət necə? nə cür? hansı? suallarından birinə cavab verir və isimlə yanaşı işlənir. Sifət öz xüsusiyyətini ancaq əşyanın adını bildirən isimlə birləşdiyi zaman göstərir, cümlədə sifət, əsasən təyin yerində işlənir.

Sifət haqqında yuxarıda deyilənləri əsas tutaraq müəllim yenə də şagirdlərin ibtidai sinifdə bu nitq hissəsi ilə bağlı əldə etdikləri bilikləri təkrar etdirib onlara mətnlər yazdırıb, oradakı sifətləri aid olduqları isimlərlə birlikdə tapmağı tapşıra bilər.

"Sifət" öyrədilərkən onun tərifindəki əlamət sözünün üzərində dayanmaq və onun müxtəlif cəhətlərini izah etmək, aydınlaşdırmaq lazımdır. Bunlar isə aşağıdakılardır:

1. Əşyanın rəngini bildirən sifətlər: qırmızı (bayraq), yaşıl (yarpaq);
2. Əşyanın formasını, zahiri görünüşünü bildirən sifətlər: hündür (bina), uca (dağ), gözəl (mənzərə);
3. Əşyanın dadını bildirən sifətlər: şirin (alma), acı (soğan);
4. Əşyanın keyfiyyətini bildirən sifətlər: möhkəm (qapı), ağıllı (uşaq);
5. Əşyanın həcmini bildirən sifətlər: geniş (otaq), uca (dağ), kiçik (eyvan);
6. Əşyanın zamanını və məkanını bildirən sifətlər: dünənki (hadisə), küçədəki (əhvalat), axşamkı (söhbət) [2, s. 67].

Əlamət anlayışının məzmunu yaxşı mənimsənildikdən sonra müəllim sinifdə olan müvafiq əşyaların (kitab, dəftər, yazı lövhəsi, qapı, pəncərə və s.) konkret hansı əlamətlər daşıdıqlarını, hansı suala cavab verdiklərini şagirdlərdən soruşa bilər.

Digər mövzularda olduğu kimi, sifət də tədris olunarkən müəllim öyrədilən və öyrənilmiş qrammatik qaydalar arasında əlaqə yaratmalıdır. Nitq hissəsinə verilən tərif sadəcə olaraq əzbərlənməməli, misallara tətbiq olunmaqla şüurlu surətdə mənimsənilməlidir. Şagirdlər lövhədə müxtəlif isimlər yazıb onun qarışmasına uyğun gələn sifətlər əlavə etməklə öyrəndiklərini əyani şəkildə nümayiş etdirə bilərlər.

Sifət bəhsi öyrədilərkən onun quruluşca növləri, dərəcələri, cümlədəki rolu üzərində də dayanmaq lazımdır. Sifətin quruluşca növlərinin tədrisi zamanı müəllim onun da isimlərdə olduğu kimi, sadə, düzəltmə və mürəkkəb ola bilməsini vurğulayır və nümunələr gətirir.

Sadə sifətlərin bir kökdən (qırmızı, ağ, kiçik, uca və s) ibarət olmaları, düzəltmə sifətlərin isim və feillərin sonuna leksik şəkilçilər əlavə etməklə (ağıl-lı, dad-sız, nümunə-vi, tarix-i, zarafat-cıl, xurma-yı, bənövşə-yi, küs-əyən, aç-ıq, gül-ünc və s.) yarandığı, mürəkkəb sifətlərin isə iki sadə sözün birləşməsi ilə (hazırcavab), iki düzəltmə sifətin birləşməsi ilə (soyuqqanlı), bir sadə, bir düzəltmə sözün birləşməsi ilə (çoxhecalı), mənsubiyyət şəkilçili sözün iştirakı ilə (stolüstü), sadə, ya da düzəltmə sifətlərin təkrarı ilə (uzun-uzun, kiçik-kiçik), biri və ya hər ikisi ayrılıqda işlənə bilməyən sözlərin birləşməsi ilə (qara-qura, kələ-kötür), yaxın və yaxud əksmənalı sözlərin birləşməsi ilə (evli-eşikli, irili-xırdalı) əmələ gəldikləri şagirdlərin nəzərinə çatdırılır [4, s. 12].

Sifəti digər nitq hissələrindən fərqləndirən cəhətlərdən biri onun dərəcələrə malik olmasıdır. Şagirdlərə izah olunmalıdır ki, əşyanın əlaməti üç dərəcədə özünü göstərər. Əlamət adi, normal dərəcədədirsə, buna sifətin adi dərəcəsi deyilir. Məsələn, qırmızı, ağ, göy və s. əlamət adi dərəcədən az olduqda azaltma dərəcəsi (qırmızımtıl, açıq göy və s.), əlamət adi dərəcədən

çox olduqda isə çoxaltma dərəcəsi (qıpqırmızı, tünd yaşıl və s.) əmələ gəlir. Müəllim sifətin dərəcəsi haqqında məlumat verərkən azaltma və çoxaltma dərəcələrinin hansı yollarla (şəkilçilərin, yaxud sözlərin köməyi ilə) yarandığını da göstərməlidir. Bundan sonra müəllimin köməyi ilə şagirdlər sifətə aid nümunələr söyləyib, onları azaltma və çoxaltma dərəcəsində işlədə bilərlər. Bu zaman əyani vəsait kimi aşağıdakı formada sxemdən istifadə etmək olar:

| **azaltma dərəcəsi** | **adi dərəcə** | **çoxaltma dərəcəsi** |
|---|---|---|
| | ağ | |
| | yaşıl | |
| | uzun | |
| | qırmızı | |
| | göy | |

Sifətə aid ilk dərsdən etibarən şagirdlərə aydın olmalıdır ki, sifət aid olduğu isimlə əlaqəyə girdikdə dəyişmir, eyni zamanda ismin dəyişməsi ona təsir etmir. Məsələn, uca dağın, uca dağdan, uca dağlar, uca dağlarımız və s.

Sifət isim yerində işlənə bilir və bu zaman isə dəyişir, ismə aid olan xüsusiyyətlərə malik olur, başqa sözlə, cəmlənə bilir, hal və mənsubiyyət şəkilçilərini qəbul edir, həmçinin ismin sualına cavab verir. Bu göstərilənlər misallara tətbiq edilir:

<u>Qoca</u> (kim?) asta-asta yeriyirdi. <u>Gənclər</u> qocaya yardım etdilər. <u>İgid</u> ölər, adı qalar. Azərbaycanda igidlərimiz çoxdur. Məktəbimizdə qəhrəmanlarla görüş keçiriləcək. Tənbəl deyər ki, ver yeyim, ört yatım, gözlə canım çıxmasın. Nəqliyyatda balacalara yer vermək lazımdır. Söz böyüyündür, su kiçiyin [6, s. 56].

Sifət öyrədilərkən müəllim şagirdlərə onun sintaktik vəzifəsini də anlatmağı yaddan çıxarmamalıdır. Cümlə haqqında şagirdlər ibtidai sinifdən müəyyən məlumata malik olurlar. Sifətin cümlədəki roluna gəldikdə isə bunu cümlələr söyləyib (yazıb) məhz cümlə daxilində izah etmək məqsədəuyğundur.

1. Uca dağlar, yaşıl meşələr rayonumuza xüsusi gözəllik verir.
2. Yumşaq, göy çəmənin üstə düşüb şeh gecədən (A.Səhhət) [5, s. 45].
3. Bulaq suyu dumdurudur.
4. Vətənimiz Azərbaycan gözəldir. [1, s. 32].

Müəllim yuxarıdakı cümlələri oxuyaraq suallar verir və göstərir ki, birinci və ikinci cümlələrdə işlənən sifətlər cümlə üzvü kimi təyin, üçüncü və dördüncü cümlələrdəki sifətlər isə xəbər yerində işlənmişdir.

“Sifət” mövzusunu şüurlu surətdə mənimsəyən şagirdlər artıq sərbəst şəkildə çalışmalar üzərində işləyə bilərlər. Müəllim onlara aşağıdakı tipdə tapşırıqlar təqdim edə bilər.

Çalışma 1.

Ədəbiyyat fənnindən keçdiyiniz şeir və mətnlərdən sifətə aid on nümunə söyləyin.

Çalışma 2.

Aşağıdakı sifətlərə uyğun isimlər yazın. Gözəl, maraqlı, qalın, isti, hündür, işıqlı, qara, kiçik, duru güləyən, yağsız.

Çalışma 3.

Verilən isimlərə bacardığınız qədər sifətlər əlavə edin. Vətən, kitab, küçə, şagird, ana.

Çalışma 4.

Bu sifətləri azaltma və çoxaltma dərəcələrində işlədin.

Qırmızı, acı, yaşıl, balaca, uzun.

Çalışma 5.

Sifətin cümlədə təyin yerində işlənməsinə aid 5 misal yazın.

Şagirdləri tərkibində sifət olan maraqlı mətnlər üzərində işlətmək çox müsbət nəticə verir.

Qeyd edək ki, şagirdlərələ lüğət, üslubiyyat üzrə müəyyən işlər aparmaq üçün sifət daha çox material verən nitq hissəsidir. Sifətdən düzgün istifadə etdikdə nitq gözəl, dəqiq olur. Başqa sözlə, şəxsin sinonim sifətlərdən yerində, məharətlə istifadə etməsi onun yüksək nitq inkişafına malik olmasının göstəricisidir.

**Elmi işin nəticəsi.** Sifət öyrədilərkən onun quruluşca növləri, dərəcələri, cümlədəki rolu üzərində xüsusi dayanmaq lazımdır. Öyrənilən nəzəri məlumat təcrübəyə tətbiq edilməlidir. Şagirdlər çalışmalar üzərində sərbəst şəkildə işləməlidirlər.

**Elmi işin yeniliyi.** Əsas nitq hisələrinin şüurlu mənimənilməsi onlara aid ilkin məlumatların mükəmməl öyrədilməsindən asılıdır. Sifətin tədrisinə keçməzdən əvvəl isim bəhsi yekunlaşdırılmalı, öyrənilən materialla keçilmişlər arasında əlaqə qurulmalıdır. Belə olduqda yeni mövzunun öyrədilməsi daha keyfiyyətli olar.

**Elmi işin əhəmiyyəti.** Şagirdlərin tərkibində sifət olan mətnlər üzərində işləmələri müsbət nəticə verir. Üslubiyyat, lüğət üzrə iş aparılmasında sifətin bir nitq hissəsi kimi rolu böyükdür. Şəxsin sinonim sifətlərdən məharətlə istifadə etməsi onun yüksək nitq inkişafına malik olmasının göstəricisidir.

## Ədəbiyyat


1. Hüseynzadə, M. Müasir Azərbaycan dili (morfologiya) / M.Hüseynzadə. – Bakı: Maarif, – 1983.
2. Azərbaycan dilinin tədrisi, I hissə – Bakı: Maarif, – 1965.
3. Cəfərov, S.Ə. Müasir Azərbaycan dili (Leksika) / S.Ə.Cəfərov. – Bakı: Şərq-Qərb, – 2007. – 192 s.
4. Dəmirçizadə, Ə.M. Azərbaycan dilinin üslubiyyatı / Ə.M.Dəmirçizadə. – Bakı: Azərtədrisnəşr, – 1962. – 272 s.
5. Mustafayeva, Q.H. Azərbaycan dilinin üslubiyyatı / Q.H.Mustafayeva. – Bakı: Elm, – 2010. – 392 s.
6. Qurbanov, A.M. Müasir Azərbaycan ədəbi dili. [I cild] / A.M.Qurbanov. – Bakı: Nurlan, – 2003. – 450 s.
7. İbrahimov, M. Seçilmiş əsərləri / M.İbrahimov. – Bakı: Yazıçı, – c.1. – 1978.


**N.Sh.Huseynova**

## On Teaching the Adjective

***Summary***


Conscious learning of the main parts of speech depends on the perfect learning of the basic information about them. Before moving on to the teaching of adjectives, it is appropriate to repeat the topic in order to conclude the discussion of nouns and establish a connection between the learned material and what has been learned. Adjectives indicate the characteristics and qualities of a thing. Students should understand that things differ from each other precisely because of signs and qualities. The characteristics of the objects are also different. These are color, volume, size, appearance, taste, etc. can be.

When teaching adjectives, special emphasis should be placed on their structural types, degrees, and role in the sentence. An adjective can also be used in place of a noun, and in this case it changes and has the properties of a noun. It can be used as a noun, it can be aggregated, and it takes a relative suffix. Adjectives as part of a sentence are mostly determinative and sometimes news.

The teacher can make students work on interesting texts and studies. Correct use of synonymous adjectives makes the speech more beautiful.


***Key words:*** *adjective, exercise, part of the sentence, the role of the adjective in the sentence, morphology*

**Н.Ш.Гусейнова**

## Об обучении прилагательному

***Резюме***


Сознательное изучение основных частей речи зависит от идеального усвоения основной информации о них. Прежде чем перейти к обучению прилагательных, уместно повторить тему,

чтобы завершить обсуждение существительных и установить связь между изученным материалом и изученным. Прилагательные указывают на характеристики и качества вещи. Учащиеся должны понять, что вещи отличаются друг от друга именно признаками и качествами. Характеристики объектов также различны. Это цвет, объем, размер, внешний вид, вкус и т. д.

При обучении прилагательным особое внимание следует уделять их структурным типам, степеням и роли в предложении. Прилагательное может использоваться и вместо существительного, и в этом случае оно изменяется и приобретает свойства существительного. Его можно использовать как существительное, объединять и принимать относительный суффикс. Прилагательное в предложении в основном выступает в роли определения, иногда является сказуемое.

Учитель может заставить учащихся работать над интересными текстами и исследованиями. Правильное употребление синонимов прилагательных делает речь красивее.

***Ключевые слова:*** *прилагательное, упражнение, часть предложения, роль прилагательного в предложении, морфология*

*Rəyçi: dos. Ç.H.Məmmədova*

*Redaksiyaya daxil olub: 05.11.2024*